# V BÖLMƏ. İQTİSADİ İNKİŞAF. MİLLİ İNNOVASİYA SİSTEMİ. AQRAR SAHƏDƏ KOOPERASİYA VƏ İKT

UOT 338.1

*Anar Fazil oğlu ABBASOV*
*Azərbaycan Kooperasiya Universitetinin*
*"Biznesin təşkili, dövlət və bələdiyyə idarəetməsi"*
*kafedrasının professoru, iqtisad elmləri doktoru*
*anar1973@mail.ru*

## İQTİSADİ GERİLİK VƏ İQTİSADİ İNKİŞAFIN QEYRİ-BƏRABƏRLİYİ - MÜASİR DÖVRÜN QLOBAL TƏHDİDLƏRİNDƏN BİRİ KİMİ

*Xülasə*

**Tədqiqatın məqsədi -** iqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyinin səciyyəvi cəhətlərini müəyyənləşdirməklə qloballaşma prosesinin başlıca təhdidi kimi problemin xarakterik xüsusiyyətlərini öyrənməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** - müqayisə, təhlil və ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** qloballaşma şəraitində iqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyinin dərinləşməsini şərtləndirən amillər müəyyənləşdirilmişdir. Qeyd edilir ki, qloballaşma şəraitində iqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyi geniş təkrar istehsal edilir. Bütün bunlar isə xüsusilə inkişaf etməkdə olan ölkələrdə kəskin sosial problemlər və gəlir qütbləşmələri doğurur. Bu baxımdan iqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyini doğuran amillərin neytrallaşdırılması mühüm əhəmiyyətə malikdir.

**Tədqiqatın nəticələri** - iqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyi ilə bağlı problemlərin qaldırılmasına istiqamətlənmiş tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın örijinallığı və elmi yeniliyi** - iqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyinin tarixi aspektlərindən əlavə müasir şəraitdə prosesə təsir edən amillər müəyyənləşdirilmiş, iqtisadi inkişafın qeyri-bərabərliyinin yaranmasında iqtisadi sistemin tipi və xarakterinin əhəmiyyətli rol oynadığı ön plana çəkilmişdir.

***Açar sözlər: iqtisadi gerilik, iqtisadi inkişafın qeyri-bərabərliyi, iqtisadi təhlükəsizlik, iqtisadi asılılıq, sosial qütbləşmə.***

### *Giriş*

Qloballaşma şəraitində iqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyi dünya ölkələri arasında iqtisadi diferensiasiyanın yaranmasına, bütövlükdə cəmiyyətdə sosial və siyasi qütbləşmənin dərinləşməsinə əhəmiyyətli təsir göstərmişdir. Müasir şəraitdə iqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyi cəmiyyətdə sosial sabitliyin pozulmasına səbəb olmaqla yanaşı, eyni zamanda cinayətkarlığın və digər xoşagəlməz vərdişlərin də yaranmasının fundamentlərindən biri kimi çıxış edir. Qaçılmaz reallıq ondan ibarətdir ki, iqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyi artıq müasir cəmiyyətin xroniki xəstəliyinə çevrilmişdir və beynəlxalq təhlükəsizliyə təhdid kimi də dəyərləndirilə bilər. Bu baxımdan elmi məqalədə tədqiq edilən məsələlər müasir dövrün ən aktual problemlərindən biridir.

**İqtisadi inkişafın fərqliliyi və iqtisadi gerilik anlayışının spesifik xüsusiyyətləri.** Məlum olduğu kimi, bütün dövrlərdə iqtisadi inkişafın fərqliliyi, o cümlədən iqtisadi inkişafın həddən artıq ayrı-ayrı ölkələrdə geri qalması və eləcə də iqtisadi inkişafda qeyri-bərabərlik tarixi xarakter daşıyır və xüsusilə də hazırkı qloballaşma şəraitində bu proseslər davamlı xarakter almaqdadır. Hazırda reallıq ondan ibarətdir ki, inkişaf etməkdə olan ölkələrdə mövcud olan iqtisadi inkişafın zəifliyi və eləcə də gəlirlərin və iqtisadi resursların qeyri-bərabər bölüşdürülməsi xüsusilə inkişaf etməkdə olan ölkələr üçün daha xarakterik hal almış və bu da bütün hallarda kütləvi şəkildə yoxsulluğun artmasına, eləcə də sosial müdafiə sisteminin zəifliyinə və inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın rəqabətədavamlılığının aşağı olmasına gətirib çıxarmışdır. Nəzərə almaq lazımdır ki, inkişaf etmiş ölkələrdə iqtisadi gerilik demək olar ki, aktual xarakter daşımır. Bu isə onunla bağlıdır ki, inkişaf etmiş ölkələrin əksəriyyətində demək olar ki, iqtisadi inkişafın geri qalması faktoru tam mənası ilə aradan qalxmış və iqtisadi inkişaf səviyyəsində lider ölkələrlə bu və ya digər şəkildə demək olar ki, ardıcıl iqtisadi inkişaf xətti davam etməkdədir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələr iqtisadi inkişaf səviyyəsinə görə lider ölkələrdən bu və ya digər şəkildə geri qalsalar da, nəticə etibarilə bu geriliyi aradan qaldırmaq istiqamətində davamlı səylər göstərir və bu səylər də öz bəhrəsini verməkdədir. Daha doğrusu, iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrdə (Afrika ölkələri istisna olmaqla) lider ölkələrdən geri qalmaq prosesi demək olar ki, faciəvi xarakter daşımır və normal iqtisadi inkişaf prosesləri davam etməkdədir. Nəzərə almaq lazımdır ki, inkişaf etməkdə olan ölkələrdə bütövlükdə iqtisadi inkişafın səviyyəsinin əhəmiyyətli dərəcədə geri qalması ilk növbədə tarixi proseslərdən qaynaqlanır. Bu ilk növbədə onunla bağlıdır ki, inkişaf etməkdə olan ölkələr keçmiş müstəmləkə və yarımmüstəmləkə səviyyəsində yaşamışlar. Vəziyyəti mürəkkəbləşdirən məqamlardan biri ondan ibarətdir ki, inkişaf etmiş ölkələrlə müqayisədə inkişaf etməkdə olan ölkələrdə kapitalist istehsal münasibətləri kifayət qədər zəif inkişaf etmiş və feodal istehsal münasibətləri, quldarlıq və feodalizm quruluşunun qalıqları hətta XX əsrin əvvəllərinə və ortalarına qədər davam etmişdir. Bir sıra ölkələr üçün xarakterik cəhət ondan ibarətdir ki, həmin ölkələrdə feodal istehsal münasibətləri tam mənası ilə formalaşmadan demək olar ki, kapitalist istehsal münasibətlərinin bu və ya digər görüntüləri meydana çıxmağa başlamışdır və həmin ölkələrdə müstəmləkə prosesləri davamlı xarakter almışdır və bu da cəmiyyətdə məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafının zəif olmasına səbəb olmuşdur.

Akademik Ziyad Səmədzadənin fikrincə hazırda dünyada inkişaf etməkdə olan ölkələrin sayı 100-dən çoxdur. Burada dünya üzrə ÜDM-in 1/3 hissəsindən bir qədər artıq hissəsi cəmləşmişdir. Statistika göstərir ki, dünya əhalisinin 65%-dən çoxu inkişaf etməkdə olan ölkələrdə yaşayır. Bütün mineral təbii resursların 35%-i, istehlakın isə cəmi 16%-i onların payına düşür. Sadə müqayisələrdən görünür ki, güclü mineral təbii əmək resurslarına malik inkişaf etməkdə olan ölkələr iqtisadi inkişaf səviyyəsinə görə çox geri qalırlar. [1, s. 37-38]. Akademik Ziyad Səmədzadənin arqumentlərinə əsaslanaraq belə qənaətə gəlmək olar ki, inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi geriliyi təkcə lokal və regional aspektdə təhlükə doğulmur, bu proses eyni zamanda müasir şəraitdə xüsusilə qlobal səviyyədə daha çox təhlükəli tendensiyaları özündə əks etdirir. İnkişaf etməkdə olan ölkələrin sosial iqtisadi inkişaf baxımdan geri qalması, bütövlükdə regional baxımdan iqtisadi geriliyin məcmusu nəticə etibarilə ona gətirib çıxarır ki, həmin ölkələrdə siyasi, sosial-iqtisadi problemlər daha kəskin şəkildə özünü büruzə verir və bütün bunlar isə son nəticədə beynəlxalq təhlükəsizliyin mövcud durumuna əhəmiyyətli təhdidlər doğurur. İqtisadi gerilik problemi uzunmüddətli bir proseslərin nəticəsidir.

Yazılı və şifahi mənbələrin məlumatlarına görə hələ 5 min il bundan əvvəl dünyanın ayrı-ayrı ölkələrində yoxsulluq prosesləri özünü kəskin şəkildə büruzə verilmişdir. Doğrudur, keçmiş İran, Hindistan və Çin, eləcə də Yunan və Roma imperiyalarında iqtisadi inkişafın səviyyəsi dünyanın digər ölkələri ilə müqayisədə əhəmiyyətli dərəcədə yüksək səviyyədə olmuşdur. Hələ orta əsrlərdə də Şərq sivilizasiyası hazırkı dövrdəki Avropanın inkişafının mövcud səviyyəsi ilə müqayisə olunmaq dərəcəsinə qədər güclü olmuşdur. Ümumiyyətlə, iqtisadi tarix belə qənaətə gəlməyə əsas verir ki, bazar iqtisadiyyatı sisteminə keçid, daha doğrusu kapitalist istehsal münasibətlərinin yaranması

nəticə etibarilə ölkələrin iqtisadi inkişaf səviyyəsindəki fərqlərə də əhəmiyyətli dərəcədə öz təsirini göstərmişdir. Belə ki, institusional baxımdan yanaşdıqda əslində geriliyin səviyyəsi ilk növbədə bu və ya digər institutların zəif inkişaf səviyyəsindən doğur, daha doğrusu, inkişaf etməkdə olan ölkələrdə hüquq və ənənələr, adətlər, mexanizmlər kifayət qədər arxaik xarakter daşıyır və bu da nəticə etibarilə iqtisadi münasibətlərin geri qalmasına və bütövlükdə iqtisadiyyatın mövcud reallıqlarla müqayisədə əhəmiyyətli dərəcədə zəif olmasına gətirib çıxarmışdır.

Etiraf etmək lazımdır ki, XXI əsrin ilk onilliklərində inkişaf etməkdə olan ölkələrdə kaptalist istehsal münasibətlərinin əsas mexanizmləri sayılan xidmət bazarlarının formalaşdırılması istiqamətində zəruri cəhdlər göstərilməkdədir. Bundan əlavə, həmin ölkələrdə turizmin inkişaf səviyyəsi ilə bağlı bu və ya digər irəliləyişləri, mütərrəqqi cəhətləri də qeyd etmək olar. Məsələn, Afrika ölkələrində, o cümlədən Misirdə turizmin inkişaf səviyyəsi kifayət qədər yüksək səviyyədədir və bu da ölkəyə valyuta gəlirlərinin daxil olmasına əlverişli şərait yaradır, eləcə də həmin ölkələrdə əhalinin hərəkəti, daha doğrusu xarici ölkələrə gediş-gəliş ilə bağlı demək olar ki, hər hansı maneələr mövcud deyildir və bu da ona gətirib çıxarır ki, həmin ölkədə miqrantların sayı kifayət qədər yüksəkdir və miqrantlar tərəfindən onların çalışmasından əldə olanan gəlirlərin ölkəyə xaricdən kömək formasında maliyyə daxilolmaları bütövlükdə iqtisadiyyatın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Şərq ölkələrində turizmin inkişaf səviyyəsi kifayət qədər yüksəkdir. Bu baxımdan qardaş ölkə olan Türkiyədə də turizmin inkişafının yüksək səviyyəsindən bəhs etmək mümkündür.

Turizm nəticə etibarilə həm ölkələrin beynəlxalq münasibətlər sisteminə əhəmiyyətli dərəcədə inteqrasiya olunmasına əlverişli şərait yaradır və eləcə də turizmdən daxilolmalar dövlət büdcəsinin gəlirlərinin nəzərəçarpacaq dərəcədə artmasına öz təsirini göstərir. İnkişaf etməkdə olan ölkələrin beynəlxalq münasibətlər sistemində mövqeyinin güclənməsini səciyyələndirən ən mühüm cəhətlərdən biri işçi qüvvəsinin ixracı ilə bağlı proseslərin sürətlənməsidir. Bütün bunlar isə inkişaf etməkdə olan ölkələrdə işçi qüvvəsinin ixracından əldə olunan valyuta gəlirlərinin xüsusilə XXI əsrin ilk onilliklərində hər il demək olar ki, 10%-ə qədər atmasına gətirib çıxartmışdır. Doğrudur, koronavirus pandemiyasının son 2 il ərzində sürətli vüsət alması nəticə etibarilə həmin gəlirlərin nəzərəçarpacaq dərəcədə aşağı düşməsinə gətirib çıxarmışdır. Lakin bütün bunlara baxmayaraq ümumiyyətlə, inkişaf etməkdə olan ölkələrdə işçi qüvvəsinin ixracı və bütövlükdə miqrasiya prosesləri nəticə etibarilə onların yaşam tərzinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərirmiş, həmin ölkələrdə sosial iqtisadi inkişaf səviyyəsinin bu və ya digər şəkildə yüksəlməsinə təsirsiz qalmamışdır.

XXI əsrin ilk onilliyində təkcə Pakistanda xaricdə işləyən işçilərin göndərdiyi pul vəsaitlərinin həcminin artması özünü büruzə verir ki, bu da təxminən həmin gəlirlərin 5 dəfə artmasını özündə əks etdirir. Misirdə miqrantlardan pul daxil olması ümumi daxili məhsulun təxminən 40%-ə qədərini, Mərakeşdə 50%-ə qədərini, Türkiyədə 60%-ə qədərini, Hindistanda isə 80%-ə qədərini təşkil edir. Bütün bunlar nəticə etibarilə istehsalın strukturuna da öz təsirini göstərir və eləcə də idxalın strukturunda baş verən dəyişikliklər bütövlükdə iqtisadi inkişafda zəruri keyfiyyət dəyişikliklərinin baş verməsinə əlverişli şərait yaradır. Hazırkı şəraitdə idxal fəaliyyəti bütövlükdə milli iqtisadiyyatın ehtiyaclarının ödənilməsinə yönəlməklə yanaşı eyni zamanda istehsal vasitələrinin, yanacağın, mineral resursların və kənd təsərrüfatı xammalının ölkəyə daxil olmasına bilavasitə istiqamətlənmişdir. Xarici ölkələrdən texnologiyaların idxalı da iqtisadi geriliyin zəiflədilməsində əhəmiyyətli rol oynayır. Texnologiyaların idxalı mahiyyət etibarilə iqtisadi inkişafın stimullaşdırılmasında əhəmiyyətli vasitələrdən biri hesab olunur və bu da bütövlükdə maliyyə resurslarının və eləcə də işçi qüvvəsinin hazırlanması ilə bağlı maliyyə xərclərinin ödənilməsində əhəmiyyətli rol oynayır. Lakin bütün bunlara baxmayaraq hazırkı qloballaşma şəraitində inkişaf etməkdə olan ölkələrin əksəriyyəti üçün başlıca təhdid mənbəyinə çevrilmiş iqtisadi inkişafın geriliyi özünü büruzə verməkdədir və bu prosesin davamlı xarakter alması nəticə etibarilə əhalinin və bütövlükdə ölkələrin gəlirləri arasındakı kəskin diskriminasiyanın güclənməsinə öz təsirini göstərə bilər.

Dünya təcrübəsi göstərir ki, inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında sosial-iqtisadi inkişaf səviyyəsindəki kəskin fərqlərin aradan qaldırılması üçün ilk növbədə iqtisadiyya-

tın rəqabətədavamlılığının yüksəldilməsinə xüsusi diqqət yetirilməli, eləcə də kapital bazarının inkişaf etdirilməsinə, inkişaf etməkdə olan ölkələrə kapital və beyin axınının güclənməsinə əlverişli şərait yaradılmalı, bundan əlavə, xarici investisiyaların inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında rolunun artırılmasına diqqət yetirilməlidir. Qloballaşma şəraitində iqtisadi inkişafın geri qalması prosesinin daha sürətli xarakter daşıması ilk növbədə gəlirlərin bölüşdürülməsi ilə bağlı mövcud tendensiyalarda da özünü büruzə verir. Gəlirlərin bölüşdürülməsi ilə bağlı proseslər kifayət qədər sərt xarakter daşıyır və bu da ona gətirib çıxarır ki, iqtisadi inkişaf səviyyəsində kəskin fərqlər yaranıb və bu da gəlirlərin bölüşdürülməsində və iqtisadi inkişafda qeyri-bərabərlik tempinin atmasına səbəb olur. Əslində, iqtisadi inkişaf səviyyəsini xarakterizə edən göstəricilər mahiyyət etibarilə ölkələrin iqtisadi inkişafın və yaxud da iqtisadi inkişafdan geri qalmasını şərtləndirən amil kimi çıxış edir. İqtisadi inkişafın zəifləməsi və iqtisadi gerilik mahiyyət etibarilə beynəlxalq əmək bölgüsündə ölkələrin bərabər səviyyədə iştirak etməməsindən qaynaqlanır, bu da nəticə etibarı ilə beynəlxalq səviyyədə rəqabətədavamlılığın aşağı olmasına gətirib çıxarır. Bütün bunlar son nəticədə əhalinin kütləvi yoxsullaşmasını şərtləndirir və eləcə də sosial müdafiənin zəif şəkildə formalaşmasına öz təsirini göstərir. İqtisadi gerilik problemi mahiyyət etibarilə uzun illərdən, hətta min illər boyu mövcud olan ənənəvi iqtisadiyyatın və ənənəvi cəmiyyətin qapalı iqtisadiyyatın və beynəlxalq münasibətlər sisteminə zəruri inteqrasiyanın olmaması proseslərindən qaynaqlanır.

**İqtisadi geriliyi və iqtisadi inkişafın qeyri-bərabərliyini şərtləndirən amillər.** İqtisadi geriliyin mahiyyəti ondan ibarətdir ki, bu və digər ölkələrdə iqtisadi artımın səviyyəsi inkişaf etmiş ölkələrlə müqayisədə əhəmiyyətli dərəcədə aşağı səviyyədədir və eyni zamanda ölkədaxili iqtisadi münasibətlər sistemi də yetərincə inkişaf etməmişdir. Bundan əlavə, iqtisadi gerilik problemi uzunmüddətli tarixi proseslərə dayandığından bu prosesdən qısa müddət ərzində çıxış yolları aramağın özü də sadəlövhlük olardı.

İqtisadi geriliyin mövcudluğu əslində tarixi proseslərdən, o cümlədə müstəmləkə proseslərindən yaransa da, lakin son zamanlar müasir dövrdə iqtisadi geriyin daha da şiddətlənməsinə bütövlükdə cəmiyyətdə baş verən proseslər, o cümlədən istehsal münasibətlərinin inkişafı, dünya səviyyəsində transformasiya proseslərinin sürətlənməsi də əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Nəzərə almaq lazımdır ki, sosialist sisteminin dağılması fonunda bazar təsərrüfatçılıq sisteminə keçid heç də bütün ölkələrdə rəvan getməmiş və bu prosesin özünəməxsus sosial-iqtisadi gərginlikləri müşahidə olunmuşdur. Doğrudur, Şərqi Avropa ölkələrində bazar münasibətlərinə keçid prosesi kifayət qədər sürətli xarakter daşımış və digər post-sovet məkanı ölkələri ilə müqayisədə əhəmiyyətli dərəcədə irəliləyişlər əldə edilmiş və həmin ölkələrdə bazar təsərrüfatçılıq sisteminin zəruri elementləri və eləcə də infrastruktur sistemləri qısa zaman kəsiyində formalaşmışdır. Lakin nəzərə almaq lazımdır ki, hazırkı post-sovet məkanı ölkələrində demək olar ki, iqtisadi inkişafın sürəti Şərqi Avropa ölkələri ilə müqayisədə əhəmiyyətli dərəcədə geri qalmışdır. Bu prosesin yaranmasının müxtəlif səbəbləri vardır. Bu səbəblərdən biri ilk növbədə onunla bağlıdır ki, post-sovet ölkələrində, bütövlükdə Qərbə yönəlik inteqrasiya münasibətləri heç də bərabər səviyyəli, yəni birmənalı şəkildə getmir. Bu isə onunla əlaqədardır ki, post-sovet məkanı ölkələrinin müəyyən hissəsində Qərbə inteqrasiya prosesləri sürətli vüsət almaqdadır və xüsusilə Baltikyanı ölkələrdə bu prosesi müşahidə etmək mümkün olar. Məsələn, Baltikyanı ölkələrdə əhalinin sayının az olmasına baxmayaraq bütövlükdə iqtisadi inkişafın sürəti və bazar infrastrukturlarının inkişaf səviyyəsi digər post-sovet məkanı ölkələri ilə müqayisədə əhəmiyyətli dərəcədə yüksəkdir.

Konkret olaraq Orta Asiya ölkələrini müqayisə obyekti kimi götürsək belə qənaətə gəlmək olar ki, həmin ölkələrdə bu və ya digər şəkildə resurslar mövcud olsa da, xüsusilə təbii resurslar əhəmiyyətli dərəcədə mövcud olsa da, lakin bu ölkələrdə istehsal münasibətlərinin inkişafı, eləcə də Qərbə inteqrasiya prosesləri nəzərəçarpacaq dərəcədə aşağı səviyyədədir. Hətta onu da qeyd etmək lazımdır ki, həmin ölkələrdə sosialist təsərrüfatçılıq sistemi qurulana qədər kapitalist istehsal münasibətlərinin tam mənası ilə dolğun şəkildə inkişafından bəhs etmək mümkün deyildi. Həmin ölkələrdə feodal istehsal münasibətləri 1917-ci ilə qədər əhəmiyyətli şəkildə qalmaqda idi. Bu isə

nəticə etibarilə həmin ölkələrin kapitalist istehsal münasibətlərini keçmədən birbaşa sosializmə keçidini şərtləndirmişdir. Həmin sovetlər dönəmində belə Orta Asiya respublikalarında sosial, iqtisadi və hüquqi inkişaf səviyyəsi digər ölkələrlə müqayisədə nəzərəçarpacaq dərəcədə aşağı olmuşdur. Odur ki, bütövlükdə iqtisadi geriliyin yaranmasına tarixi faktorlarla yanaşı, eyni zamanda transformasiya yönümlü dəyişikliklərin baş verməsi prosesi də öz təsirini göstərmişdir. Həmin ölkələrdə Rusiyadan asılılığın aradan qaldırılması prosesləri baş verməmiş, həmin ölkələr tam mənası ilə Rusiya Federasiyasının vassalına çevrilmiş və bu istiqamətdə, bu prosesdən azad olunmaq istiqamətində də hər hansı səylərin göstərilməsi özünü büruzə vermir.

Bu prosesi şərtləndirən ən mühüm cəhətlərdən biri də tarixi ənənələrlə yanaşı eyni zamanda hazırkı prosesin özündə belə həmin ölkələrdə bürokratik əngəllərin mövcudluğu, eləcə də həmin ölkələr üçün diktator və inzibati-amirlik sisteminin öz rolunu saxlaması kimi meyilləri də əlavə etmək mümkündür. Məsələ burasındadır ki, hansı ölkələrdə iqtisadi inkişafın səviyyəsi nəzərəçarpacaq dərəcədə geri qalirsa həmin ölkələrdə diktaturanın inkişaf səviyyəsi daha da yüksək olur və korrupsiya bütövlükdə iqtisadi münasibətlər sistemini və iqtisadi inkişafı tam mənası ilə buxovlayır. Hələ dünyanın ikiqütblü olduğu dövrdə yəni SSRİ-nin mövcudluğu dövründə belə sosializm düşərgəsi ölkələri kapitalist ölkələrindən nəzərəçarpacaq dərəcədə geri qalırdı. Doğrudur, sosializm düşərgəsi ölkələrinin vahid jandarmı hesab olunan SSRİ-də sosial-iqtisadi inkişafın səviyyəsində bu və ya digər nisbətlərdə irəliləyişlər, xüsusilə sosial sahələrdə irəliləyişlər özünü büruzə versə də, lakin nəticə etibarilə SSRİ-ni dünya nəhəngi kimi şərtləndirən ən mühüm cəhət həmin ölkədə silahlanma səviyyəsinin nəzərəçarpacaq dərəcədə yüksək olması idi.

Təsadüfi deyildir ki, dövlət büdcəsindən ayrılan vəsaitin 20%-ə qədəri militarist yönümlü xərclərə, yəni hərbiləşdirilmiş xərclərə yönəlirdi və bu zaman ölkə əhalisinin bu prosesə etiraz etmək imkanları yox idi. Təbii ki, kütləvi informasiya vasitələri bu prosesləri gizlədir və SSRİ-də hər şeyin doğrudan da yaxşı olduğunu iddia edirdilər. Məsələn, konkret olaraq müqayisə aparsaq görərik ki, soyuq müharibənin davam etdiyi zamanlarda ABŞ-da hərbi xərclərə yönəldilən vəsaitin dövlət büdcəsindəki xüsusi çəkisinin 13%-i ötdüyü zaman belə həmin ölkələrdə kifayət qədər sosial-siyasi proseslər gərgin xarakter daşımışdır. Lakin SSRİ-də isə bütün bunlardan bəhs etmək, insan hüquqlarının mövcudluğundan, insanların bu və ya digər proseslərə etiraz etmək şanslarından bəhs etmək mümkün deyildi. Bu isə onu göstərirdi ki, Qərb ölkələrində əslində bu və ya digər şəkildə hesabatlılıq prosesi mövcuddur və bu proses hazırda da yüksək səviyyədədir. Hesabatlıq isə onu göstərir ki, hakimiyyət nümayəndələri, o cümlədən hökumət xalq qarşısında hesabat verir və bu prosesin özünəməxsus müsbət cəhətləri də mövcuddur və bu da sosial-iqtisadi inkişaf səviyyəsinin sürətləndirilməsinə, insan hüquqlarının səviyyəsinin yüksəlməsinə öz təsirini göstərir. Təəssüf ki, SSRİ-nin süqutundan sonrakı zamanlarda Pribaltika ölkələri istisna olmaqla, bu prosesi keçmiş post-sovet məkanı ölkələrində, o cümlədən Orta Asiya ölkələrində görmək mümkün deyildir.

Etiraf etmək lazımdır ki, kapitalizm cəmiyyəti özündən əvvəlki bütün istehsal münasibətləri və istehsalat, iqtisadi sistemlərlə müqayisədə kifayət qədər mütərəqqi bir quruluş olmuş və əvvəlki cəmiyyətdə və hətta sosializm cəmiyyətinin özü ilə müqayisədə kifayət qədər demokratik xarakter daşımışdır. Bu isə nəticə etibarilə həmin sistemi yaşayan ölkələrdə iqtisadi inkişaf səviyyəsinin nəzərəçarpacaq dərəcədə yüksək olmasına gətirib çıxarmışdır. Feodal istehsal münasibətlərinin erkən dağıldığı ölkələrdə iqtisadi inkişaf səviyyəsinin kifayət qədər yüksək olduğu qənaətinə gəlmək olar. Məsələn, təsadüfi deyildir ki, Rusiya İmperiyasında feodal istehsal münasibətlərinin ən mühüm və xarakterik cəhətlərindən biri olan təhkimçilik hüququ 1861-ci ildə süqut etmişdir. 1861-ci ilə qədər artıq dünyanın əksər ölkələrində, o cümlədən Almaniyada, Birtaniyada və digər ölkələrdə artıq kapitalist istehsal münasibətləri özünün yüksək inkişaf səviyyəsinə çatmış və həmin ölkələrdə nəqliyyat sistemi, fabrik və zavodlar yüksək inkişaf göstəricilərinə nail olmuşdur. Məhz bütün bunlar isə ona gətirib çıxarmışdı ki, deməli ötən əsrin əvvəllərinə qədər keçmiş Rusiya İmperiyasının müstəmləkələrində feodal istehsal münasibətlərinin əhəmiyyətli şəkildə qalıqları müşahidə edilmişdir. Həmin ölkələrdə insanlar daha imkanlı sahibkarların, daha imkanlı şəxslərin

qulu və köləsi olmaqdan uzağa gedə bilməmişdir. Doğrudur, etiraf etmək lazımdır ki, XX əsrin əvvəllərində Azərbaycanın hazırkı paytaxtı Bakı şəhərində neft emal edən müəssisələrin mövcudluğu, o cümlədən Hacı Zeynalabdin Tağıyev tərəfindən neft sənayesi müəssisələrnin yaradılması həmin müəssisələrdə işləyən işçilərin dünyagörüşünün yüksəlməsinə və eləcə də gəlirlərin artmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərmişdir.

İqtisadi inkişafın geri qaldığı ölkələri xarakterizə edən ən mühüm cəhətlərdən biri, daha doğrusu oxşar və eyni tipli məqamlardan biri ondan ibarət olmuşdur ki, həmin ölkələr davamlı olaraq müstəmləkə proseslərini yaşamışdır, yəni bir ölkənin müstəmləkəsindən çıxaraq digər ölkənin müstəmləkəsinə çevrilmişlər. Bu isə ona gətirib çıxarmışdı ki, həmin ölkələrdə hər hansı nəinki sosial-iqtisadi inkişaf səviyyəsindən bəhs etmək, eyni zamanda insan hüquqlarının bərqərar olmasından bəhs etmək mümkün deyildir. Konkret olaraq Azərbaycandan bəhs etsək belə qənaətə gəlmək olar ki, 1861-ci ildə Rusiyada təhkimçilik hüququnun süqut etməsinə baxmayaraq Azərbaycan Respublikasında ötən əsrin əvvəllərinə qədər demək olar ki, təhkimçi-istehsal münasibətləri xüsusilə kənd yerlərində özünü qoruyub saxlayırdı. Belə bir tendensiyanı Orta Asiya respublikalarında da müşahidə etmək mümkündür. Orta Asiya respublikalarında feodalizmin inkişaf səviyyəsi, feodaizmin qalıqları keçmiş Azərbaycanla müqayisədə əhəmiyyətli dərəcədə yüksək idi və bu proses hazırda da Orta Asiya respublikalarında sosial-iqtisadi inkişafın digər postsovet məkanı ölkələri ilə müqayisədə geri qalmasına və ədalətin, bütövlükdə zəifliyin, insan hüquqlarının yetərincə olmamasının nümunəsi kimi çıxış edir. Məsələn, belə bir tarixi paralel aparmaq kifayətdir ki, iqtisadi inkişafın geri qalmasını, eləcə də inkişaf səviyyəsindəki fərqləri daha doğru müşahidə etmək mümkün ola bisin. Məsələn, Şərqin ən böyük imperiyalarından biri Osmanlı İmperiyası olmuşdur və həmin Osmanlı İmperiyası demək olar ki, Avropanın, Asiyanın əhəmiyyətli hissəsini özündə birləşdirmişdi. Məsələn, konkret olaraq hazırda Türkiyədə sosial-iqtisadi inkişafın səviyyəsi ilə Orta Asiya respublikalarının sosial iqtisadi inkisafinin səviyyəsini müqayisə etmək demək olar ki, mümkün deyildir. Bundan əlavə, Türkiyədə sosial-iqtisadi inkişafın səviyyəsini konkret olaraq Afrika ölkələri ilə, digər Asiya ölkələri ilə müqayisə etmək mümkün deyildir. Bu isə onun nəticəsidir ki, Türkiyə Respublikası hazırda Osmanlı varisidir və Osmanlıda kifayət qədər mütərəqqi tendensiyalar mövcud olmuşdur, insanların dünyagörüşü digər ölkələrlə müqayisədə kifayət qədər yüksək olmuşdur. Hazırkı Qərb ölkələrinin bir qrupu Osmanlı İmperiyasının müstəmləkələrindən biri olmuşdur. Qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, əslində müstəmləkə və yarımmüstəmləkə inkişaf sistemi mahiyyət etibarı ilə ölkələrin sosial-iqtisadi səviyyəsinin məhdudlaşmasına öz təsirini göstərmiş və müstəmləkə ölkələrində iqtisadi azadlıqların mövcud olmaması ona gətirib çıxarmışdır ki, ölkə iqtisadi cəhətdən azad olmadığından bütövlükdə hər hansı mütərrəqqi meyilləri özündə əks etdirən inkişaf proseslərindən də məhrumdur.

Oxşar paralelləri Yaponiya üzərindən də aparmaq mümkündür. Məsələn, Yaponiyanın özündə də imperiya münasibətləri olmuş və Yapon imperiyası bütövlükdə Asiyada əhəmiyyətli dərəcədə rol oynamışdır. Odur ki, Yaponiyanın inkişaf səviyyəsi ilə müqayisə etdikdə Nepalda, Butanda, bütövlükdə digər Asiya ölkələrində iqtisadi inkişafın səviyyəsi arasında əhəmiyyətli fərqlər mövcuddur. İqtisadi müstəqillik mahiyyət etibarilə siyasi, sosial, mədəni, psixoloji sferaya əhəmiyyətli dərəcədə təsir göstərir və bu da bütövlükdə ölkələrin beynəlxalq əmək bölgüsündə, beynəlxalq münasibətlər sistemində rolunun daha da güclənməsinə, rəqabət qabiliyyətinin daha da artmasına əlverişli şərait yaradır.

**İqtisadi gerilik və iqtisadi inkişafın qeyri-bərabərliyinin dərinləşməsinin cəmiyyətdə sosial təhlükəsizliyə təsiri.** İqtisadi gerilik problemi XX əsrin sonlarından etibarən özünü daha çox qlobal aspektdə büruzə verməyə başlamış və hazırda dünyanın və bütövlükdə bəşəriyyətin üzləşdiyi ən mühüm qlobal problemlərdən birinə çevrilmişdir. Təsadüfi deyildir ki, XXI əsrin ilk onilliklərində demək olar ki, dünya əhalisinin yarıdan çoxunun yaşadığı ölkələrdə iqtisadi gerilik özünü kəskin şəkildə büruzə verir və bu isə ona gətirib çıxarır ki, dünyada adına inkişaf etməkdə olan ölkələr deyilən daha çox insanların yaşadığı iri region dünyanın çiçəklənən ölkələrindən, dünyanın iqtisadi cəhətdən lider mövqeyi tutan ölkələrdən iqtisadi göstəricilərin səviyyəsinə görə

əhəmiyyətli dərəcədə, hətta 10 dəfədən çox səviyyədə geri qalmaqda davam edir və bu nisbət getdikcə daha çox böyüyür. İstər adambaşına düşən ümumdaxili məhsulun həcminə görə, istərsə də adambaşına düşən orta illik gəlir səviyyəsinə görə inkişaf etməkdə olan ölkələr dünyanın inkişaf etmiş ölkələrindən əhəmiyyətli dərəcədə geri qalmaqda davam edir. İnkişaf etməkdə olan ölkələrdə hətta adambaşına gəlir 1 gün ərzində 1 dollardan belə aşağı səviyyədədir ki, bu da son nəticədə həmin ölkələrdə sosial fəlakətin kifayət qədər dərinləşdiyini əyani şəkildə büruzə verməkdədir. Belə bir şəraitdə hər hansı bir effektiv sosial müdafiə sistemindən bəhs etmək yersiz olardı. Bunun əlavə, məhsuldar qüvvələrin inkişaf səviyyəsi də kifayət qədər arxaik bir xarakter daşıyır və bu da yoxsul ölkələrdə son nəticədə insanların öz ölümlərini gözləməsi kimi bir problemi açıq-aşkar büruzə verir. Bütün bunlar son nəticədə qlobal səviyyədə təhlükəsizliyə təhdidləri gücləndirir. BMT-nin hesablamalarında qeyd edilir ki, dünyada təxminən 1,5 milyarddan çox əhali yoxsulluğun həddi kimi müəyyənləşdirilən səviyyədən belə aşağı həddə yaşayır. 1,5 milyarddan çox, daha doğrusu yoxsulluq həddindən aşağı səviyyədə yaşayan insanların 77%-i Hindistanda məskunlaşmışdır. İqtisadi gerilik problemini kəskinləşdirən məqamlardan biri də ondan ibarətdir ki, son 30 il ərzində dünyada kasıb ölkələrin sayı təxminən 2 dəfəyə qədər artmışdır. Hazırda dünyanın zəngin və yoxsul ölkələrə bölünməsi prosesi nəticə etibarı ilə qloballaşma prosesinin ən mühüm təhdidlərindən biri hesab edilməklə yanaşı, eyni zamanda dünyada terrorçuluğun səviyyəsinin yüksəlməsinə və eləcə də hərbi və siyasi münaqişələrin dərinləşməsinə öz təsirini göstərir.

Dünya ölkələrinin iqtisadi gerilik yaşamasını şərtləndirən çoxsaylı faktorlar mövcuddur ki, həmin faktorlar bir-biriylə sıx qarşılıqlı əlaqəyə malikdir. İqtisadi geriliyi doğuran faktorlar içərisində ilk növbədə yoxsul ölkələrdə istehsalın maddi-texniki resurslarla təchizat səviyyəsinin inkişaf etmiş ölkələrlə müqayisədə əhəmiyyətli dərəcədə geri qalmasını qeyd etmək olar. Daha doğrusu dünyanın yoxsul ölkələrində iqtisadiyyatın maddi-texniki bazası nəinki müasir tələblərə cavab vermir, eləcə də həmin ölkələrin iqtisadiyyatında əl əməyi üstünlük təşkil etməklə bütövlükdə elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin tətbiqindən söhbət gedə bilməz. İqtisadi gerilik ilk növbədə iqtisadiyyatın strukturundan və eləcə də iqtisadiyyatın ixtisaslaşma səviyyəsindən də bilavasitə asılıdır. Bu baxımdan xüsusilə qeyd etmək lazımdır ki, iqtisadi cəhətdən geri qalmış ölkələrdə iqtisadiyyat əl əməyinə əsaslanan aqrar istehsal üzrə ixtisaslaşmış və bu zaman həmin ölkələrdə hər hansı üstün sənaye proseslərindən bəhs etmək yersiz olardı. Belə ki, həmin ölkələrdə kənd təsərrüfatı istehsalını əl əməyindən istifadə edilməklə həyata keçirməklə yanaşı, eyni zamanda sənaye prosesləri demək olar ki, inkişaf etməmişdir. Ümumiyyətlə, iqtisadi cəhətdən geri qalmış ölkələrdə hər hansı sənaye inqilabının nəticələrindən danışmaq yersizdir. Həmin ölkələr üçün xarakterik məqamlardan biri də ondan ibarətdi ki, iqtisadiyyatda əsasən kapitaltutumlu və elmtutumlu məhsullar istehsal edilmir. İstehsal edilən məhsullar daha çox əməktutumlu xarakterə daşıyır. Bütün bunların nəticəsidir ki, həmin ölkələrin ixtisaslaşma istiqamətini təşkil edən kənd təsərrüfatında məhsuldarlığın səviyyəsi kifayət qədər aşağı olur. İbtidai xarakter daşıyan texnologiya demək olar ki, iqtisadiyyatın inkişafını stimullaşdırmır və bu da ilk növbədə kapital çatışmazlığı ilə sıx əlaqədardır. Məlum həqiqətdir ki, iqtisadiyyatın ixtisaslaşma istiqamətini kənd təsərrüfatı təşkil etdiyi halda bu zaman kifayət qədər əmək mövsümlü proseslər özünü büruzə verir. Məlum həqiqətdir ki, kənd təsərrüfatında istehsal prosesləri ilə əhali məşğulluğu arasında kəskin uyğunsuzluqlar mövcuddur. Bu isə ona gətirib çıxarır ki, işçi qüvvəsinin istehsalda məşğulluğunun təmin edilməsi prosesi əhəmiyyətli dərəcədə aşağı düşür və bu da işsizlik səviyyəsinin yüksəlməsinə öz təsirini göstərir. Bunu da əlavə etsək ki, kənd təsərrüfatında məhsuldarlığın səviyyəsi əhəmiyyətli dərəcədə aşağı olur, belə bir vəziyyətdə iqtisadi inkişafın stimullaşdırılmasından və iqtisadi fəallıqdan söhbət gedə bilmir. Xüsusilə iqtisadi geriliyi doğuran ikinci faktor kimi əmək ehtiyatlarından istifadənin səmərəsiz xarakter daşıması özünü əhəmiyyətli şəkildə büruzə verir.

İqtisadi gerilik yaşayan ölkələrdə mövcud problemlərdən biri də ilk növbədə işçi qüvvəsinin peşəkarlıq səviyyəsinin aşağı olmasıdır. Daha doğrusu, insanlar daha çox fəhlə və qul kimi işləmək proseslərini yadırğamamışlar. Belə ki, həmin ölkələr üçün xarakterik olan məqamlardan biri də hələ də həmin ölkələrdə feodalizmin və quldarlığın tör-töküntüləri və qalıqlarının üstünlük təşkil

etməsi ilə bağlıdır. Konkret olaraq belə qənaətə gəlmək olar ki, iqtisadi cəhətdən gerilik yaşayan ölkələrdə onların hər hansı təşəbbüskarlıq qabiliyyətindən bəhs etmək mümkün deyildir. Həmin ölkələr üçün ilk növbədə kasıblıq demək olar ki, adi bir dəyərə çevrilmişdir. Belə ki, iqtisadi gerilik yaşayan ölkələrin əhalisi idarə olunmaq üçün yaradılmışdır. Dünya ölkələrində iqtisadi geriliyi doğuran ən mühüm faktorlardan biri də ilk növbədə əhalinin kütləvi şəkildə savadsızlığı və maariflənmə səviyyəsinin aşağı olması ilə bağlıdır. Təbiidir ki, yoxsulluq səviyyəsinin yüksək olduğu ölkələrdə hər hansı maariflənmə səviyyəsindən bəhs etmək mümkün deyildir. Məhz bunların nəticəsidir ki, həmin ölkələr üçün feodal düşüncə tərzi daha çox hakim mövqe tutur və bu da iqtisadiyyatın idarə olunması və iqtisadiyyatın dövlət tənzimlənməsi ilə bağlı proseslərin demək olar ki, inkişaf etməməsinə gətirib çıxarmışdır. Həmin ölkələr üçün iqtisadiyyatın idarə olunması yalnız və yalnız imkanlı şəxslərin özlərinə məxsus iradələrinin reallaşdırılmasının məcmusu kimi dəyərləndirilə bilər. İqtisadi cəhətdən gerilik yaşayan ölkələr üçün xarakterik məqamlardan biri də korporativ düşüncə tərzinin və korporativ maraqların hakim mövqe tutmasıdır, yəni həmin ölkələr üçün cəmiyyətin mənafeyi əsas deyil. Həmin ölkələr üçün daha çox iqtisadi cəhətdən varlı ailələrin maraqları və düşüncə tərzləri önəmli hesab olunur. İqtisadi geriliyi doğuran ən mühüm faktorlardan biri də istər siyasi və istərsə də iqtisadi demokratiyanın mövcud olmaması, insan hüquqlarının pozulması və bütövlükdə vətəndaşların öz hüquqları uğrunda mübarizə aparmaq iqtidarında olmaması və hətta buna cəhd etməklə bağlı düşüncələrinin məhdudluğu ilə bağlıdır. Məsələ burasındadır ki, həmin ölkələrdə iqtisadi cəhətdən varlı ailələrin mədəni inkişaf səviyyəsinin belə aşağı olması hatta onların malik olduqları iqtisadi imkanlardan belə çox qəbilələr arasında silahlı münaqişələrin üstünlük təşkil etməsinə gətirib çıxarır. Ümumilikdə götürdükdə iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrdə, iqtisadi gerilik yaşayan ölkələrdə əhalinin təfəkkürünü qəbilə təfəkküründən uzaqda olmayan bir zümrə kimi qəbul etmək mümkündür. Həmin ölkələr üçün aqrar islahatlardan, torpaq islahatlarının həyata keçirilməsindən bəhs etmək də mümkün deyildir. Məsələ burasındadır ki, həmin ölkələrdə torpaqların əhəmiyyətli hissəsi, xüsusilə münbit torpaqların əhəmiyyətli hissəsi varlı ailələrə məxsusdur. Daha kasıb əhali təbəqələri isə həmin varlı ailələrin qulları və kölələri kimi fəaliyyət göstərirlər.

İqtisadi cəhətdən zəif inkişaf etmiş və iqtisadi gerilik yaşayan ölkələrdə təbiət də demək olar ki, əhalinin üzünə gülməmişdir. Belə ki, həmin ölkələr üçün əlverişsiz iqlim şəraiti, xüsusilə isti, quru iqlim bütövlükdə həyat şərtlərinin daha da pisləşməsinə gətirib çıxarır. İqtisadi inkişafdan geri qalmış ölkələrdə iqtisadi geriliyi doğuran səbəbləri yalnız daxili amillərdə axtarmaq doğru deyildir. Belə ki, iqtisadi cəhətdən zəif inkişaf etmiş və iqtisadi gerilik yaşayan ölkələr üçün xarici iqtisadi şərait də demək olar ki, yetərli xarakter daşımır. Həmin ölkələrdə xarici ticarət şərtləri demək olar ki, onların xammal istehsalçıları olmaları baxımından daha acınacaqlı şərtlər vəd edir. Məlum həqiqətdir ki, dünya bazarında xammalın qiyməti hazır məhsullarla müqayisədə əhəmiyyətli dərəcədə aşağıdır. İqtisadi cəhətdən gerilik yaşayan ölkələr isə dünya bazarına əsas etibarilə kənd təsərrüfatı xammalı ixrac edirlər. İqtisadi gerilik yaşayan ölkələrdə ixracın strukturunda xammalın xüsusi çəkisinin yüksək olması, idxalın strukturunda isə hazır məhsulların üstünlük təşkil etməsi nəticə etibarı ilə büdcənin balansında mənfi saldonun yaranmasına gətirib çıxarır ki, bu da bütövlükdə iqtisadi vəziyyəti daha da ağırlaşdırır.

İqtisadi gerilik yaşayan ölkələrdə iqtisadi geriliyi daxili və xarici mühit faktorları doğurur ki, bu da bütövlükdə həmin ölkələr üçün tam mənası ilə acınacaqlı şərtlər vəd edir. İqtisadi gerilik yaşayan ölkələrdə vəziyyəti gərginləşdirən faktorlardan biri də xarici borcların atmasıdır. Təsadüf deyildir ki, dünyanın 4 ən yoxsul ölkəsində XX-XXI əsrin əvvəlləri üçün xarici borcun həcmi 215 milyard dollardan çoxdur.

Dünya ölkələrində iqtisadi geriliyi doğuran ən mühüm faktorlardan biri də əhalinin sayının artması və eləcə də məskunlaşmanın sabit xarakter daşımasıdır. Həmin ölkələr üçün vətəndaş müharibəsinin, hərbi münaqişənin davamlı xarakter daşıması nəticə etibarı ilə əhalinin davamlı olaraq köçlərini şərtləndirir. Bu köçlər eyni zamanda xəstəlik və eləcə də təbii fəlakət zəminində baş verir və beləliklə, daxili çəkişmələr və müharibələr nəticə etibarilə həmin ölkələrdə iqtisadi və siyasi

şəxslərin davamsızlığına öz təsirini göstərir. İnkişaf etmiş ölkələrdə cəmiyyətin sosial strukturunun daha çox kasıblardan ibarət olması və eyni zamanda həmin əhalinin də az gəlirli təbəqələrdən formalaşması bütövlükdə sosial-iqtisadi ziddiyyətlərin daha da kəskinləşməsinə səbəb olur. İqtisadi cəhətdən geri qalmış ölkələrdə sanki qapalı bir zəncirlə köləliyin davamlı olaraq təkrar istehsalı prosesi baş verir. Həmin ölkələrin əhalisi köhnə psixologiyalı, rəhbərliyi də beynəlxalq münasibətlər sistemində kölə təsəvvüründən və kölə təfəkküründən uzaqda deyillər.

İqtisadi gerilik yaşayan ölkələrin əksəriyyəti demək olar ki, XX əsrin ortalarından etibarən siyasi cəhətdən müstəqillik qazansalar da həmin ölkələrin pisxologiyasında köləlik və müstəmləkəçilik prosesi davamlı olaraq təkrarlanmaqdır. Ümumiyyətlə, XX əsrin ikinci yarısından etibarən dünyada müstəmləkəçilik prosesi süqut etsə də, keçmiş müstəmləkələrin siyasi müstəqillik əldə etməsi baş versə də, lakin həmin ölkələrin sosial-iqtisadi müstəqilliyində, sosial-iqtisadi təşəbbüskarlıq qabiliyyətindən, sosial-iqtisadi inkişaf səviyyəsinin yüksək olmasından bəhs etmək mümkün deyildir. Belə ki, həmin ölkələr üçün maddi-texniki bazanın geri qalması, maliyyə, texnoloji, elmi-texniki və təhsil səviyyəsinin acınacaqlı durumda olması bütövlükdə onların real müstəqilliyini şərtləndirmir və əslində daha çox iqtisadi vassalçılığı ön plana çəkir.

## ƏDƏBİYYAT

1. Z.Ə.Səmədzadə. Çin qlobal dünya iqtisadiyyatında. Bakı - 2009, 608 s.
2. Дж. Стиглиц. Глобализация: тревожные тенденции. Пер.с.англ. М 2003
3. Е.П.Качуровский. Современная мировая экономика Минск 2012. 582 с

***Анар Фазиль оглы Аббасов***
***Азербайджанский Университет Кооперации***
***профессор кафедры “Организация бизнеса, государственное и муниципальное управление”,***
***доктор экономических наук***

## Экономическая отсталость и неравенство экономического развития - современности как одна из глобальных угроз

***Резюме***

**Цель исследования: -** изучить характеристики проблемы как основной угрозы процессу глобализации путем выявления характеристик экономической отсталости и неравенства экономического развития.

**Методология исследования -** использованы методы сравнительного анализа и обобщения.

**Актуальность исследования -** выявлены факторы, способствующие углублению экономической отсталости и неравномерности экономического развития в условиях глобализации. Отмечается, что в условиях глобализации широко воспроизводятся экономическая отсталость и неравномерность экономического развития. Все это вызывает серьезные социальные проблемы и поляризацию доходов, особенно в развивающихся странах. В связи с этим важно нейтрализовать факторы, вызывающие экономическую отсталость и неравномерность экономического развития.

**Результаты исследования -** рекомендации по решению проблем экономической отсталости и неравномерности экономического развития.

Оригинальность и научная новизна исследования - помимо исторических аспектов экономической отсталости и неравенства экономического развития, были выявлены факторы, влияющие на процесс в современных условиях, тип и характер экономической системы сыграли важную роль в создании неравенства экономическое развитие.

***Ключевые слова: экономическая отсталость, неравенство экономического развития, экономическая безопасность, экономическая зависимость, социальная поляризация.***

***Anar Fazil Abbasov***
***Azerbaijan Cooperation University***
***“Business organization, state and municipal management”***
***professor of the department, doctor of economics***

## Economic backwardness and inequality of economic development in the modern era as one of the global threats

***Summary***

**The purpose of the study -** to study the characteristics of the problem as a major threat to the process of globalization by identifying the characteristics of economic backwardness and inequality of economic development.

**Research methodology -** methods of comparative analysis and generalization were used.

**Significance of the research-**the factors contributing to the deepening of economic backwardness and inequality of economic development in the context of globalization have been identified. It is noted that in the context of globalization, economic backwardness and inequality of economic development are widely reproduced. All this is causing serious social problems and income polarization, especially in developing countries. In this regard, it is important to neutralize the factors that cause economic backwardness and inequality of economic development.

**The results of the study-** recommendations to address the problems of economic backwardness and inequality of economic development.

**Originality and scientific novelty of the research -** in addition to the historical aspects of economic backwardness and inequality of economic development, the factors influencing the process in modern conditions were identified, the type and nature of the economic system played an important role in creating inequality of economic development.

***Key words: economic backwardness, inequality of economic development, economic security, economic dependence, social polarization.***